**Doç.Dr. Cihan ÖZDƏMİR**

*Yunis Əmrə İnstitutu Bakı Mərkəzinin direktoru*

# TÜRK DÜNYASININ BİLGƏSİ ÇİNGİZ AYTMATOV

Yaşları tarix qədər qədim olan türklərin hər dövrdə, hər çağın prinsip və qaydalarına uyğun olaraq qəhrəmanları olmuşdur. Bu baxımdan türklər dünyanın nadir millətlərindən biridir. Həmin qəhrəmanlar tarixin axınını dəyişə biləcək qədər qüdrətli olmuşlar. Adı orta əsrlər dünya tarixinin qüdrətli hərbi sərkərdəsi Çingiz xandan gələn Çingiz Aytmatov dünyanı çağın formatına uyğun təəccübləndirə bildi. Çingiz xanın qılıncı ilə fəth etdiyi dünyanı Çingiz Aytmatov qələmi ilə heyrətləndirə bildi. Çingiz Aytmatov ümumtürk düşüncəsini, ruhunu bəşəri miqyasda ifadə edə bildi. Dünya onun yaradıcılığının sehrinə qapıldı, əsərlərini sevə-sevə oxumağa başladı. Bu gün dünyanın dörd bir yanında Çingiz Aytmatovun əsərləri tərcümə olunur, böyük tirajla nəşr olunaraq yayılır.

Çingiz Aytmatov çətin bir həyat yaşamışdır. Uşaqlıqda atasını itirmiş, Stalin rejimi daim onların ailəsini təqib etmişdir. Lakin bütün bu ağır sınaqlar gələcək yazıçı üçün böyük təcrübə, yaradıcılığı üçün mühüm istinad nöqtəsi olmuşdur.

1950-ci illərdə ədəbiyyata gələn Çingiz Aytmatov qısa zamanda parlamış, fransız yazarı Lui Araqon onun "Cəmilə" povestini dünyanın ən gözəl eşq hekayəsi adlandırmışdır. Muxtar Auezov, Tvardovski yazıçının tanınmasında mühüm rol oynamışlar. Lakin danılmaz bir fakt var ki, onun bu gün dünya ədəbiyyatının klassiki səviyyəsinə yüksəlməsində əsas amil istedaddır. O, məhz böyük istedadı sayəsində bütün qapıları açmış, əlçatmaz zirvələri fəth etmişdir.

Çingiz Aytmatov türk dünyasının qürur mənbəyidir. Bu, təkcə onun dünyaca tanınan bir türk yazarı olması ilə bağlı deyil. Əsas səbəb Çingiz Aytmatovun yaradıcılığının məğzində duran mətləblərdir. Çingiz Aytmatov nəsri təpədən-dırnağa qədər millidir. O öz xalqının yaşadığı taleyi dünyaya təqdim etmişdir.

Çingiz Aytmatov yaradıcılığının əsas istinad nöqtəsi türk mifologiyası və folklorudur. Demək olar ki, bütün türk xalqları həmin

kökdən qidalanmış, onun üzərində inkişaf edərək bu günə gəlib çıxmışlar. İstər-istəməz o kökə istinad, ondan bəhrələnmə yazıçının yaradıcılığını türk xalqlarına sevdirmişdir. Çingiz Aytmatov dəfələrlə müsahibələrində, əsərlərində möhtəşəm qırğız eposu "Manas"dan, folklor və mif mətnlərindən bəhrələndiyini qeyd etmişdir. "Qırğız dastanları mənə çox təsir edib. Hələ də təsir etməkdədir. Hər əsərimin bir ucu bu dastanlara bağlanmaqdadır. "Manas" dastanı bir milyon misradan ibarətdir. Dörd cildlik bu dastan iyirmi ildə bir yerə toplanmışdır. Dastan insan duyğularından ibarətdir. Təkrar edirəm, hər əsərim bu qırğız dastanından qaynaqlanır" [1, s.412].

Çingiz Aytmatov hər bir türk xalqı üçün doğma yazıçıdır. Çünki onun toxunduğu mətləblər hər bir türk xalqını düşündürür, həyəcanlandırır. Əski Sovetlər dövründə Çingiz Aytmatov rejimin basqısı altında yaşamağa məcbur olan hər bir türk xalqının sevimli yazıçısına çevrilmişdir. Yazıçının qələmə aldığı "Üz-üzə", "Cəmilə", "Ana tarla", "Erkən gələn durnalar" povestlərində, "Oğulla görüş", "Əsgər oğlu", "Öldürmək, öldürməmək" hekayələrində İkinci Dünya müharibəsinin reallıqları öz əksini tapmışdır. Bu taleyi Sovet rejimi altında yaşamağa məhkum olmuş hər bir türk xalqı yaşamışdır. Onların yaşadığı ağrılı tale Çingiz Aytmatovun qələmində öz ifadəsini tapmışdır.

XX əsrin ən möhtəşəm bədii abidələrindən biri olan "Gün var əsrə bərabər" romanı ilə yazıçı ilk dəfə olaraq ədəbiyyata manqurtlaşma terminini gətirdi. Sovetlərin türk xalqlarının başına gətirdiyi bəlaları bu əsər qədər mükəmməl ifadə edən ikinci əsər tapmaq çətindir. Yazıçının romandakı süjeti məntiqi sürətdə davam etdirdiyi Çingiz xanın ağ buludu" povestində 1937-1938-ci illərdə türk xalqlarının başına gətirilən, eləcə də yazıçının atası Torequl Aytmatovun da öldürüldüyü repressiya gerçəyini bədii ədəbiyyatda əks etdirmişdir. Abutalıb Kutubbayev obrazı repressiyanın qurbanı olmuş Hüseyn Cavid, Mikayıl Müşfiq, Çolpan, Qədiri, Fitrət və digərləri üçün qoyulan abidədir.

Yazıçı 90-cı illərdən sonra öz yaradıcılığını uğurla davam etdirmiş, "Kassandra damğası", "Dağlar çökəndə" romanlarında insanı sülhə çağırmış, mənfi vərdişlərdən uzaq durması zərurətini ortaya qoymuşdur.





Çingiz Aytmatovun 90 illiyi, ölümünün 10 illiyini qeyd etdiyimiz 2018-ci ildə onun miras qoyduğu möhtəşəm yaradıcılığı hər birimiz üçün istinad mənbəyidir. Biz hər birimiz onunla fəxr edirik.

### ƏDƏBİYYAT

1. Zeynep Oral. Cengiz Aytmatov ile konuşma. Nesin Vakfı Yıllığı, İstanbul, 1976.

**Jihan Ozdemir**

### CONNOISSEUR OF THE TURKISH WORLD CHINGIZ AITMATOV

### SUMMARY

Chingiz Aitmatov was one of the famous writers of Turkish people. He was able to successfully present general Turkish thought worldwide.

**Джихан Оздемир**

### ЗНАТОК ТЮРКСКОГО МИРА ЧИНГИЗ АЙТМАТОВ

### РЕЗЮМЕ

Чингиз Айтматов один из самых известных и почитаемых писателей на обширной географии тюркского мира. Он с успехом представил на мировом уровне общетюркское мышление.